**Free Web Hosting** | Web Hosting | Free Web Space | Web Hosting

Artıq"qaranlıq"dan soz açsam,meni qınama,demişler:

(aşiq gördığın soyler)

# QARACIQ ÇOBAN

## (Qazan xanın evinin yeğmalanmasi)

### başlanış

**1**

**Gece dır,aleme çöküb qaranlıq ufuqlere tapdanıb yere yamanıb**

**heryan,qu vurusan qulaq tutulur fikirde,duyğuda donub dayanib**

*************

**2**

**ay küsüb üz qoyub zöhreye sarı güneş yolub töküb zeri saçların**

**zülmet bayraq açıb yerın üzunde değişib alemin qayda-qerarın**

*************

**3**

**bir çaqqalda hürmür,qurdda ulamır bayquşlarda başın çekib qınına**

**ölüm qanad gırıb yerin uzune her şey şübhelenir var olduğuna**

**************

**4**

**köşeni bürüyen sukut elınden sukut cana duyur,feryad eğilir**

**darıxıb hökürüb haray çekirem dereler diskinir,dağlar terpenir:**

***************

**5**

**-ulduzlu göylere-ayli göylere,** **quzqun gimi qanad geren bulutlar!**

**dumanlar içinden,çenler içinden,** **canıxmış bir insan,sizi haraylar!**

***************

**6**

**ehremenler,duzax qurub yolumda.** **qorxuram-qorxuram men qaranliqdan!**

**dişin şaqqıldadır,bereldir gözün:** **her kölün dibinden ,mene bir şeytan.**

***************

**7**

**güneşi salsada gece quyuya,** **yenede goylerde,ulduzlar var,ay var .**

**diyirler geceler yoldan azanlar,** **ulduzlara baxıb,yolunu tapar.**

***************

**8**

**çekilün ,çekilün, çekilün, aman !** **ömrümün göyünden çekilün bir an!**

**qoyun ışıq salsın yollarıma ay .** **yolumu soruşum men ulduzlardan.**

***************

**9**

**ulduzlar, ulduzlar, aman ulduzlar** **neden göz basmayıb parıldaşmırsız?**

**hardasız? harda itib batıbsız?** **niye sakit- sakit pıçıldaimırsız?**

***************

**10**

**yoxsa batlaqlıqa batıb dı (behram)?** **(keyvanın) quseden bukulub beli?**

**(ülkerin) salxımı püsgünden düşüb?** **( zöhrenin)sazının qırılıb teli?**

***************

**11**

**sankı bulutlar yuxuya batıb** **bextimden göyde bir şimşekde şaxmaz!**

**bostançi babada baş atıb yatıb, çaxmağını çalmaz, fenarın yaxmaz!**

***************

**12**

**ulduzlar uzaqdır semaler derin insana yerdendi varsa her haray**

**yüz bele bağırsam ,sıtqasam da men yolunu değışmez güneş, ulduz ,ay**

***************

**13**

**helelik bu menem, buda qaranlıq gözlerim berelir qara zülmete.**

**başın qaranlıqa döyür baxışım. belke bir yol aça nuranıyete.**

***************

**14**

**ancaq her gecenin dali gündüzdür her bir felaketin qurtuluşu var**

**heyatın yolları dere-tepedi(r) her yenişin ise bir yoqquşu var**

***************

**15**

**ürek çox derdlenir ,göz çox yaşarır, lakin heyat bütün derd qem değil.**

**bu acı günlerin, şirini de var ömür tek toy değil, tek matem değil.**

***************

**16**

**her derdin davasın axtarmaq gerek ne çıxar yıxılıb zarıldamaqdan?**

**telaşsız qolların quvveti olmaz yol getmese çatmaz meqsede insan**

***************

**17**

**seheri axtaran geceden qorxmaz alıram elime telaş esasın,**

**eğer goyden yere qetran yağsada, üxüb geçmeliyem xülmet deryasın,**

***************

18

ümüd her ne qeder zeyif olsada, bütün düğünleri boşaldar ,açar.

ümüd bir qığılcım, bir qor olsada, tonqallar yandırar, alovlar saçar,

***************

19

yene bağırıram, haray sesımden, dereler dillenir, dağlar seslenir.

yer -göy feryadımdan zinhara gelir qayalar disginir, daşlar terpenir

***************

20

sankı bir ışartı göz vurur mene uzaxda cansız bir ışıq parlayır

elebil gecenin udu yayılır, yada qaranlığın bağrı çatlayır.

***************

21

ışıqdan uzanan zeyif şüalar, bağlanır könlüme qızıl bır sap tek

menide özile çekir aparır, o bir yumaq kimı serıtlenerek .

***************

22

qapı- penceresiz bir abidede, hansı niyazli el bir şam yandırmış

möhtac bir könülün boş altcası, bu sönük ocağı ışıqlandırmış.

***************

23

burda kim var mene yol nişan vere? bir berbad bena dır, bir qurtarmış şam

bu şam çeker olsa son nefeslerın, mütleq qaranlıqda boğulacağam.

***************

**24**

**hisli taxçalarda, saxsi püsüzler üstüne qat ba qat, toz- topraq qonub**

**yaxılan şamların isti göz yaşi, tökülüb her yanda lay be lay donub,**

***************

**25**

**burda buz bağlayıb dönübdır daşa : hacetli gözlerın tökdığı yaşlar-**

**bağli düğünleri açanmasada , menim gecemi ki ışiqlandırar**

***************

**26**

**tozlu püsüzleri pile doldurub, yandırıram, şamın son şölesile.**

**bir anda abide çirağban olur, söndığı şamların, güdazesile.**

***************

**27**

**ışıq, qaranlığı qovur eşiğe görünür bir seggiz bucaqlı bena**

**önümü qurudur mermuz bir cezebe könül meftun olur baxdıqcan ona!**

***************

**28**

**taxçalarda, yığım- yığım kar- kağaz cilidli -cilidsiz köhne kitablar.**

**basılıb başına torpaq eleyib. zamanlardan esib gelen rüzgar.**

***************

**29**

**savadsız, yazısız sade ellerde, qedimlerden qalma bir adetde var**

**o her cür kitaba ,her cür basqıya, nedense müqeddes gözile baxar.**

***************

**30**

ona hörmetli dir her yazı her xet ne yandırmaq olar, ne atmaq olar
(şübheli ellerden) ehtras diye, qaçırdar mescide, ocağa qoyar.

***************

31

ona görede bu biğulelerde bezan doğurdanda abideler var
insan duyğusunun xezanelerin, bu veranelerden, axtarmaq olar.

***************

32

gahdanda görüsen bir mücavirin, facie qoparar zıyankar eli.
anlamaz- anlayar yer qazar qoyar, kar- kağaz qarışıq, bu incileri!

***************

33

içimde derin bir axtarış hissi. (kitablari axtar) dıye- bağırır
eyle bil görünmez bir ses, bir nida, taxçanın içinden meni çağırır!

***************

34

kitablari bir- bir açıb baxıram cür be cür qürandır ancaq çoxusu,
bir an nefesimi dali qaytarır, qalxan toz- toprağın acı qoxusu...

***************

35

buda, meşin cilid qalin bir beyaz. diyesen, köhne bir el yazmasıdır.
boz varaqlarına qonan lekeler, tek toz-topraq değil, zaman pasıdır.

***************

36

tüstülü pösüzün dar ışığında, açıram qarşıma köhne beyazı.

**burnumda kifsemiş kağazın iği, gözüme oxşayır gözel bir yazı.**

***************

**37**

**gözüm dolandıqca varaqlarında, beyazdan bir qapi açılır mene**

**qapıda sankı bir at bağlanıbdır. meni aparacaq başqa aleme.**

***************

**38**

**xiyalim sıcrayır atın beline. baxışlarım cilov, gözlerim yuyin.**

**yurturam keçmişin derinlerine, çaparaq çıxıram zaman qeydinden.**

***************

**39**

**günler, aylar, iller, dali qayıdır, qalxır mezarından ulu babalar.**

**qarıcıq analar qolların açır. meni qariılayır eller- obalar.**

***************

**40**

**adamı, tanıyan yerde qurd yesin. hamısı bir be bir öpür uzumden.**

**(uruz) pıçıldayır (deli dondara): ((bilmem neçeminci nevesiyem men)).**

***************

**41**

**azer ler yurdunun şen duzlerinde, alaca sıvanlar yene qurulur.**

**şerefime böyük qonaqlıq olur develer kesilir ,qoyun qırılır**

***************

**42**

**iti şarabların ağzı açılır. ocaqlar yaxılır, kabablar pişir.**

**her an yeni deste yetişir yoldan erenler xatınlar atlardan düşür.**

***************

**43**

**ellerde serahi ince gözeller su sonasi kimi süzür- sallanır**

**dolub- boşaldıqca zer piyaleler, yanaxlar güllenir, tutur- allanır**

***************

**44**